# İslam İnkişaf Bankı indiyədək Azərbaycan iqtisadiyyatına 1 milyard dollarıdək investisiya yatırıb





Ölkəmizdə səfərdə olan İslam İnkişaf Bankı (İİB) qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casirin rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 27-də Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla anıb, abidəsi önünə əklil qoyub.



Şəhidlər xiyabanına gələn nümayəndə heyəti Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edərək, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində İslam İnkişaf Bankı qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casir Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşüb. İqtisadiyyat naziri Azərbaycanın İslam İnkişaf Bankı, həmçinin İİB qrupuna daxil olan institutlarla əlaqələrə önəm verdiyini, bankın özəl sektorun inkişafı istiqamətində ölkəmizə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğulayıb. Qeyd olunub ki, İİB tərəfindən indiyədək Azərbaycan iqtisadiyyatına 18 layihə çərçivəsində 1 milyard ABŞ dollarına yaxın investisiya yatırılıb. Nazir Azərbaycanın İİB ilə əlaqələrin genişlənməsində maraqlı olduğunu, işğaldan azad edilmiş ərazilərimizin bərpası sahəsində əməkdaşlıq imkanlarını diqqətə çatdırıb, bu ərazilərdə dayanıqlı infrastruktur şəbəkəsinin qurulması ilə bağlı layihələrin dəstəklənməsinin önəmini bildirib. Görüşdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Sahibkarlığın İnkişafı Fondu (SİF) və "Azərbaycan İnvestisiya Şirkəti" ASC ilə tərəfdaşlıq, KOB İnvestisiya Fonduna bankın vəsaitlərinin cəlb edilməsi, rəqəmsal iqtisadiyyatın və Dördüncü Sənaye İnqilabı texnologiyalarının tətbiqi ilə Azərbaycanın və regionun inkişafına yönəlmiş layihələrdə İİB ilə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub və təkliflər səsləndirilib.

İslam İnkişaf Bankı qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casir ölkəmizdə aparılan iqtisadi islahatların İİB tərəfindən dəstəkləndiyini vurğulayıb, əlaqələrin inkişafı istiqamətlərinə dair fikirlərini bölüşüb. Məhəmməd Süleyman Əl-Casir İİB-in bundan sonra da Azərbaycanda həyata keçirilən layihələrdə fəal iştirak edəcəyini diqqətə çatdırıb.

Tərəflər iqtisadiyyat və maliyyə sahələrində tərəfdaşlığın möhkəmləndirilməsi, prioritet sahələrdə əməkdaşlığın genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparıblar.

Azərbaycan. - 2023.- 28 fevral.- S.5.